UOT 327

ƏLƏMDAR ŞAHVERDİYEV
Bakı Ali Neft məktəbinin dosenti
elemdarshahverdiyev@gmail.com


ETNİK ANLAMDA MƏDƏNİYYƏT VƏ ONUN TURİZMİN İNKİŞAFINDA ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/112/66-70


Hər bir toplum yaratdığı mədəniyyəti ilə ümumbəşəri sistemdə öz yerini müəyyən edir. Mədəniyyət anlayışı çoxşaxəlidir və cəmiyyətin formasına, növünə, istiqamət və daşıyıcasına görə fərqlənir. Mədəniyyət istənilən cəmiyyətin tarixən formalaşmış səviyyəsidir. Mədəniyyət turizmin inkişafında mühüm rol oynayan istiqamətlərdən biridir.

Açar sözlər: etnik, mədəniyyət, turizm, dil, din.

Giriş. Təbiət ilə yanaşı olaraq mədəniyyət də turizmin inkişafında misilsiz əhəmiyyət kəsb edir. Əsas amil odur ki, insanın istənilən məsələyə daha dəqiq desək, təbiətə, dövlətə, incəsənətə, o cümlədən özünün yaşayış tərzinə, başqa adamlara, hətta özünə belə münasibəti mədəniyyət səviyyəsi ilə ölçülür. Mədəniyyət anlayışı çoxşaxəlidir və cəmiyyətin formasına, növünə, istiqamət və daşıyıcısına görə fərqlənir. Mədəniyyət istənilən cəmiyyətin tarixən formalaşmış inkişaf səviyyəsidir. Mədəniyyət insan qabiliyyətinin bəhrəsi olaraq yaranan maddi və mənəvi sistemdir. Mədəniyyət ilə bağlı istənilən tərif, sonda turizm biznesinin inkişafı üçün əhəmiyyət kəsb edir.



Ölkənin bədii-sənət mədəniyyəti digər istiqamətlər ilə müqayisədə turizm üçün başlıca maraq doğuran sahədir. Bunu bir sıra səbəbi vardır! İlk öncə, mədəniyyətin bu sahəsi insanları daha çox maraqlandırır. İkincisi, bədii-sənət mədəniyyətin turizm üçün mühüm əhəmiyyət kəsb edən sahələri – memarlıq abidələri, tamaşa, perfomans, adət və rituallar, məbəd, muzey, sənətkarlıq mərkəzləri təqdim etmək imkanı verir. Bədii-sənət mədəniyyətinə eyni zamanda etnoqrafik və dini elementlər də daxildir.



Din, istənilən ölkə və xalqın mədəniyyətinin vacib komponentlərindəndir. Dini dünyagörüş bədii-sənət mədəniyyətinin bir sıra sahələrinə, xüsusən incəsənətə nəzərəçarpacaq dərəcədə təsir göstərir. Qədim və Orta əsrlərdə dinin incəsənətə təsiri daha çox özünü göstərir. Bunu xalq yaradıcılığı əsərləri və incəsənət nümunələri sübut edir.

Görkəmli türk salnaməçisi Fəzlillah Rəşidəddinin "Oğuznamə" əsərində "Tengiz", "Tanrıçı-


lıq", Hindistanda Kasta sistemi buna bariz nümunədir. Hindistanda üç minə yaxın kasta mövcuddur. Hindistan konstitusiyasında formal olaraq insanlara bərabər hüquq verilməsinə baxmayaraq cəmiyyətdə kasta qaydaları ciddi şəkildə qorunur. Oğuz türklərində isə cüt rəqəmlərin müqəddəsləşdirilməsi buna misal ola bilər. Məs.: 24-lər, 32-lər və s. Oğuz xanın 6 oğlu, oğlanlarının hər birinin isə 4 oğlu olmuşdur. Hal-hazırda Azərbaycanın etnotoponomikasında izləri qalmaqdadır. Bərdə rayonunun 32-lər kəndi, Neftçala rayonunda 24-lər kəndi və s.

Etnik müstəvidə turizmin inkişaf etdirilməsində mədəniyyətin tərkib hissəsi olaraq dilin mühüm rolu vardır. İstənilən bir xalqın dini onun zehni inkişafının, əxlaqi xüsusiyyətlərinin və mədəniyyətinin ən doğru göstəricisidir. Dil zehni aşaraq emosiyalara yol açа bilər. Ona görə də dil mədəniyyəti beynəlxalq münasibətlər, turizm sektoru, kütləvi informasiya vasitələri, incəsənət və təhsil sahəsi daxil olmaqla müxtəlif səviyyələrdə dialoq qurmaq vasitəsidir.


Rus alimi akademik Lixaçevin dil ilə bağlı maraqlı fikri var. O, qeyd edir ki, xalqın ən böyük dəyəri dildir. İnsanlar dil vasitəsi ilə düşünür, yazır və danışır. Etnik müstəvidə bədii sənət, adət-ənənə ilə yanaşı dil də xalq yaradıcılığının yüksək nailiyyətidir. Dil insanın bir fərd olaraq düşüncəsi hesabına həyatda qalmaq bacarığıdır. Bütövlükdə, dil etnosun təfəkkür və mentalitetinin formalaşmasında əsas vasitədir.

Hər bir xalqın dili – onun tarixi taleyinin, uğur və uğursuzluqlarının saxlanc yeri, sevinc, kədər, şübhə və ümidinin siması, ruhu, xarakter və dil ilə fərqlənir. Buna bir neçə nümunə göstərmək olar. Məs.: ingilis dili ingilislərin, rus dili rusların, Azərbaycan türk dili isə azərbaycanlılığın sinonimidir. Dünyada hər bir millətin özünəməxsusu (milli, etnik) mənzərəsi (görünüşü) var. Bunun üçün ruslarla vyetnamlılar arasında bir müqayisə aparaq. Rus mədəniyyətində Yeni il simvolu milad ağacıdır (yolka). Bu, Rusiyada yeni ildə sərt şaxta olmasına rəğmən yaşamağı və ömrün uzanmasını simvolizə edir. Vyetnam mədəniyyətində isə Yeni il çiçək açan şaftalı ağacı ilə simvolizə edilir. Bu gənc, gözəl qadın obrazı və qadına məhəbbət mənasını verir. Bütün cisim və hadisələrin dil anlamı yalnız antropogenetik deyil (yəni insana yönələn – Ə.Ş.), bir etnosa yönəlmiş etnosentik prosesdir.


Mədəniyyətin yaradıcısı və daşıyıcısı xalqdır. Turizmin inkişafında əsas subyekt xalqdır. Hər bir ölkənin ərazisi insan kütləsi ilə məskunlaşıb. Məskunlaşma nöqteyi-nəzərdən bütün ölkələrin ərazisi bir-birinə bənzəyə bilər. Ancaq onları bir-birindən fərqləndirən bir sıra meyarlar mövcuddur. Meyarlar bunlardır:



Xalq anlayışı ilə bağlı vacib xüsusiyyətlərdən biri də əhalinin etnik tərkibidir. Etnik fərqliliyi əks etdirən xüsusiyyətlər bunlardır.



Etnik xüsusiyyətlərə daxil olan amillərdən bir də mentalitetdir. Buna bəzən "görünüş" xüsusiyyəti də deyirlər.



Ortaq türk mədəniyyəti zəngin bir xəzinədir. Bu xəzinə Mərkəzi Asyadan Yoika dağına (II Yekaterina Ural adlandırıb), Aralıq dənizi hövzəsindən Qara dənizə, Qafqazdan fars körfəzinə qədər olan əraziləri əhatə edir.

Fəzlullah Rəşidəddinin "Oğuznamə" əsərində Oğuz xanın müxtəlif ölkələrə elçilər göndərməsindən xəbər verir.

"Kitabi-Dədə Qorqud"da türk ellərinin həmrəyliyindən, islamaqədərki mədəniyyətindən, o cümlədən adət-ənənələrindən məlumat verilir.


Regional müstəvidə Ortaq türk mədəniyyətinin turizmin inkişafında rolu məsələsi görkəmli türkoloq-alim L.H.Qumilyovun tədqiqatlarında xüsusi olaraq araşdırılıb. Düzdür, onun əsərlərində birbaşa turizm məsələsi öz əksini tapmayıb. Amma "Qədim türklər" və "Xəzərətrafı xalqların minillik tarixi" (rus dilində) əsərlərində ən qədim zamanlardan türk xalqlarının ortaq yaşayış tərzi, adət-ənənələri, dini dünyagörüşü və mentaliteti haqında geniş məlumat verilib.

Ortaq türk mədəniyyətinin ən mükəmməl nümunələrindən biri də görkəmli alim Nəriman Qocatürkə məxsusdur. Müəllifin 2020-ci ildə İstanbulda nəşr olunan "Biz Türkleriz! Çadırımız Gökkubbesi" əsərini xüsusi qeyd etmək istəyirəm. Əsərdə mifoloji düşüncədən gerçəkliyə qədər türklərin keçdiyi tarixi yol izlənir. "Gobud ağac əfsanəsindən", Aşinanın su nəğmələrinə və başqurdların törəniş tarixinə qədər baş verən hadisələr haqqında məlumat verilir. Eyni zamanda şaman dədə deyimləri və ya Qorqud Ata nəsihətləri, Manas kopuru, Ruhsal nəğmələri əsərdə öz əksini tapıb. Əsərdə həmçinin, Mete dövrü, Atilla əfsanəsi, onun Şərqdən Qərbə yürüşü və digər qəhrəmanlıq səhifələri yer alır. Nəhayət, müəllif əsərdə Cümhuriyyət dönəmində Qurtuluş savaşına münasibət bildirir. Azərbaycanda İstiqlaliyyətin əldə olunmasında keçilən mürəkkəb mübarizə yoluna aydınlıq gətirilir.

Müasir dövr "Bir millət, iki dövlət" çağırışı ilə müşayiət olunur. XXI əsr türk əsridir. Ortaq türk mədəniyyəti dünyaya açılan yeni pəncərədir. Bu xətt türk dövlətlərini bütün sahələrdə olduğu kimi turizmin inkişafında da yüksək nailiyyətlər əldə etməsinə gətirib çıxaracaq.

Ortaq türk mədəniyyətinin tədqiqində rus müəllifi V.L.Veliçkonun araşdırmalarının xüsusi yeri var. V.L.Veliçko "Qafqaz: rus məsələsi və tayfalararası məsələlər" əsərində müsəlman türklər haqqında, xüsusən onların adət-ənənələri, oxşar və fərqli xüsusiyyətləri təhlil edilir. Turizmin inkişafında hər bir xalqın özünəməxsusu xarakteri mühüm rol oynayır. Əsərdə diqqəti çəkən cəhətlərdən biri azərbaycanlıların, tatarlar adlandırması və müəllifin buna maraqlı yanaşmasıdır. Müəllif yazır ki, azərbaycanlıların tatar adlandırılması düzgün deyil, halbuki tatar adı monqol tayfalarına aiddir. Amma hesab etsək ki, azərbaycanlıların damarlarında tatar qanı var. Bunu müəllif Batı, Menqu və Hülaki xanın Şərqi Zaqafqaziyaya (Cənubi Qafqaza) yürüşü ilə əsaslandırılır. Ancaq sonra isə qeyd edir ki, belə olan halda ərəblərin gəlişindən sonra Azərbaycandan ərəblərin etnotoponimik izləri qaldı. Bu azərbaycanlıların ərəbləşməsi anlamına gəlmir (3, s.154). Hansı ki, azərbaycanlı və ərəblər dərisinin rəngi və qıvrım saçlı, - hətta mulatları xatırladaraq, - görünüşü ilə oxşardırlar. Əsərdə deyilir ki, azərbaycanlılar mənşəcə türk və turanlıdır. Oğuzlar, səlcuqlar və müasir türk və kürdlərlə (fikir Veliçkonundur - Ə.Ş.) qan qohumudur. Müəllif yazır ki, azərbaycanlılar istiqanlıdır, təbiətən xeyirxah, mərd, böyük qəlbə malik, zəkalı və mənəvi inkişafa haqq edən xalqdır (3, s.155).

Azərbaycanlılar güclü hakimiyyəti pərəstiş edən xalqdır. Veliçko bunu İslam dini ilə əlaqələndirir. Müəllif yazır ki, İslam dini azərbaycanlıların mədəni irsindən biridir. Ona görə də azərbaycanlılarda bu dindən irəli gələn xarakterlər cəmlənib. Bu yanaşmanın ideoloji əsasları bunlardır.



Əsərdə müəllif həm mövqeyini müdafiə etmək üçün Azərbaycan türkləri ilə alman və anqlosakslar arasında paralellər aparır (3, s.157). Əsərdə Veliçkonun bu yanaşmasında siyasi "rəng" var. O çalışır ki, Rusiyanın Azərbaycanda həyata keçirdiyi müstəmləkə siyasətinə haqq qazandırsın. Və Azərbaycan xalqını hakimiyyətə itaət edən bir xalq kimi təqdim etmək istəyir.

Nəticə. Bütün deyilənləri ümumiləşdirərək belə qənaətə gəlmək olur ki, hər bir cəmiyyət yaratdığı mədəniyyət vasitəsilə universal sistemdəki yerini müəyyən edir. Mədəniyyət anlayışı çoxşaxəlidir və cəmiyyətin formasından, növündən, istiqamətindən və mühitindən asılı olaraq dəyişir. Mədəniyyət istənilən cəmiyyətin tarixən formalaşmış səviyyəsi olmaqla, turizmin inkişafında da mühüm rol oynayan sahələrdən biridir. Bütün bunları nəzərə alaraq hazırki məqalədə Azərbaycan türk xalqının ortaq türk mədəniyyətinin daşıyıcısı olması müxtəlif platformalarda təhlil edilərək qiymətləndirilib.

ƏDƏBİYYAT

1. Фазлалах Рашид ад-Дини, (1987). Огузнаме. Б.: Элм, 128 с.
2. Гумилев Л.Н., (1990). Тысячелетие вокруг Каспия. Б.: Азернешр, 312 с.
3. Величко В.Л., (1990). Кавказ. Русское дело и междуплеменные вопросы. Баку: Элм, 224 с.
4. Nerman Kocatürk, (2020). Biz türkleriz! Çadırımız gök kubbesi. İstanbul, 389 s.
5. Сапожникова Е.Н., (2004). Страноведение. Теория и методика туристического изучения стран. Москва: Издательская центр «Академия», 240 с.

АЛАМДАР ШАХВЕРДИЕВ
Доцент Бакинской высшей школы нефти

КУЛЬТУРА В ЭТНИЧЕСКОМ ЗНАЧЕНИИ И ЕЕ РОЛЬ В РАЗВИТИИ ТУРИЗМА

Каждое общество определяет свое место в универсальной системе посредством создаваемой им культуры. Понятие культуры многогранно и различается в зависимости от формы, типа, направления и носителя общества. Культура - исторически сложившийся уровень любого общества. Культура - одно из направлений, играющее важную роль в развитии туризма.

Ключевые слова: этническая принадлежность, культура, туризм, язык, религия.

ALAMDAR SHAHVERDIYEV
Associate Professor of Baku Higher Oil School

CULTURE IN THE ETHNIC MEANING AND ITS ROLE IN THE DEVELOPMENT OF TOURISM

Each society determines its place in the universal system with the culture it creates. The con-

cept of culture is multifaceted and differs depending on the form, type, direction and carrier of society. Culture is a historically formed level of any society. Culture is one of the directions that plays an important role in the development of tourism.

Keywords: ethnic, culture, tourism, language, religion.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 may 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 29 yanvar 2026-cı il.
Rəyçilər: t.ü.f.d. Azad Rzayev, t.ü.f.d. Məmmədağa Baxışov.